# Gələcək zaman inkişaf etmiş texnologiyalar çağıdır

İnsan təfəkkürünün məhsulu olan texnologiya, təqribən, bir əsrdən çoxdur ki, həyat tərzimizin ayrılmaz hissəsinə çevrilib. Xüsusilə, son bir neçə onillikdə ortaya çıxan elmi-texniki yeniliklərin birbaşa məişətimizə daxil olması nəticəsində insanı əhatə edən təbii mühitlə yanaşı, texnoloji bir ətraf aləm təsəvvürü də formalaşmışdır. Bu iki mühit bir-birinə paralel deyil, bir tam halında, hətta texnikanın təbii münasibətlər sistemini bütövlükdə əhatə edəcək surətdə inkişaf etməkdədir. Bunun nəticəsində, *Kant* fəlsəfəsinin bir parçası olaraq təsvir edilən insan-təbiət münasibətləri sisteminin yerini, *Habermasın* dilə gətirdiyi üslubda, insan-texnika münasibətləri tutmuşdur.

İnsan-texnika münasibətləri, eyni zamanda, güc münasibətləridir. Dünyanın insan tərəfindən nəzarətinə imkan verən bu texniki güc mexanizmi əvəzolunmaz yeniliklər, komfort şərait, elmi-tərəqqi fürsətləri yaradarkən, digər tərəfdən də ənənəvi təbii münasibətlər sisteminə ciddi zərərlər verərək, başda insanın bioloji nizamı olmaqla, təbiətin özünəməxsus qaydalarını da pozmaqdadır.

Texnologiyalar düşmən deyil, dostdur. Məhz bu anlayışdan irəli gələrək, XIX əsrin son rübü ilə XX əsrdə texnologiya insanların əlində bir-birlərinə qarşı siyasi-hərbi güc vasitəsi qısmində istifadə edilərkən, eyni zamanda, klassik tərzdə desək, «təbiəti insan əməyinə ram etmək» vasitəsi kimi bir missiyanı da icra etmişdir. Yaşadığımız XXI əsrin ikinci onilində bu baxış sürətlə dəyişməyə başladı. Xüsusilə də yapon düşüncəsində mütəmadi olaraq qabardılan bir fikrə görə, insan təfəkkürünün dizaynı olan texnoloji məhsullar özləri də bir «varlıq» hesab edilirlər. Qloballaşmağa başlayan bu anlayış insanın həm texnoloji məshullar, həm də texnologiya vasitəsilə təbiət üzərindəki hakimiyyətində zehni mənada balanslaşdırma aparılmasının vacibliyini ortaya çıxarmışdır. Artıq insan evində, iş yerində, ictimai məkanlarda istifadə etdiyi texniki vasitələrə daha «humanist» münasibət nümayiş etdirməyə məcbur olur.

Belə aydın olur ki, orta əsrlər Avropa düşüncəsində ortaya çıxan və mərkəzində insan olan humanist münasibətlər sistemi XX əsrin beynəlxalq hüquq anlayışında bütün insanlığa aid edilərkən, hal-hazırda yeni bir məna qazanaraq texnoloji «varlıqları» əhatə edəcək anlama qovuşmuşdur. Lakin nəzərə almaq lazımdır ki, artıq bir sıra

ölkələr oyuncaq kuklaların, robotların insanlar tərəfindən sındırılmasını və parçalanıb sıradan çıxarılmasını qadağan edən qanunlar həyata keçirməyə başlayıblar. Deməli bizi, dünyaya baxışımızı tamamilə dəyişdirəcək humanizmin fərqli və yeni anlayışları gözləyir.

Əziz oxucular, gəlin, düşünək və düşündürək. Kökümüzdən, tarixi ənənələrimizdən ayrılmadan müasirləşək. Hər saat və hətta hər saniyə inkişaf edən texnologiyaların təhsilimizə və tərbiyəmizə böyük təsirini unutmayaq. Gələcək çağların texnoloji kəşflər selinin qarşısında özümüzü itirməyib, onlardan doğru-düzgün istifadə etməyi bacaraq. Unutmayaq ki, bu qarşısıalınmaz texnoloji inkişaf ən əvvəl təhsildən başlayır. Çünki hər bir yeni texniki vasitənin arxasında təhsil almış yüksək ixtisaslı kadr dayanır.